# "KEÇSƏ DƏ İLLƏR UNUTMAZ..."



**Vaqif YUSİFLİ,**
**filologiya elmləri doktoru**

**Hacı Ələmdar Mahirin vəfatından iki il keçir və bu iki il ərzində elə gün olmayıb ki, onu xatırlamayım. "Məclisi-üns"də - AZ.TV-nin daimi verilişlərində çıxış etdiyimiz anlar yadıma düşür, onun lider olduğu o verilişdə klassik ədəbiyyatımızın təbliği ilə bağlı elmi söhbətlərimiz, Nizamidən, Nəsimidən, Füzulidən, Seyid Əzimdən, Vahiddən və b. şairlərdən, onların yaradıcılığından qiymətli inciləri mənalandırıb şövqlə söhbət açmağımız elə bil dünən olub. O verilişin uzunmüddətli ömrü də Hacı Ələmdarın adı ilə bağlıdır. Verilişin lentə alınması-yazılış günü Hacı Ələmdar öz maşınında məni "Neftçilər" metrosunun yanından götürərdi. Yol boyu elə ədəbiyyatdan söhbət edərdik. "Məclisi-üns" bir məktəb idi, Hacı Ələmdar bu məktəbdə təkcə minlərlə, on minlərlə tamaşaçıların deyil, bizim də müəllimimiz idi.**

Hacı Ələmdar əsil bakılı idi, Nardaranda doğulmuşdu. Nardaran deyəndə şeir və muğamat yada düşür. Bütün ünlü muğam ustalarının Nardaran və ümumən Bakı toylarında yetişməsi hamıya məlumdur. Əzəldən Bakı-Abşeron mühiti şeir, sənət, musiqi diyarı kimi tanınıb və bu bölgədən çıxan bir çox sənət adamları nəinki Azərbaycanda, dünyada tanınıblar. Hacı Ələmdar da Bakı-Abşeron ədəbi mühitinin yetirməsidir. Onun klassik poeziyaya məhəbbəti, heç şübhəsiz, ilk növbədə, tərbiyə aldığı, yetişdiyi Nardaran kəndinin şeir və muğam havasından yaranmışsa, ən əsası Füzuliyə - bütün Şərq poeziyasının bu dahi sənətkarına pərəstişindən, heyranlığından nəşət edib. Hacının sağlığında çap etdirdiyi "Mənim tanıdığım Füzuli" kitabında bu heyranlığın ifadəsini görürük.

Hacı Ələmdar Mahirin bu kitabını tədqiqat əsəri sayırıq, çünki burada Füzuli yaradıcılığının poetik xüsusiyyətləri şərh olunur, onun şeirlərində istifadə etdiyi məcazlar sistemi nəzərdən keçirilir. Hiss olunur ki, Hacı Ələmdar Füzuli heyranı olmaqdan Füzulini dərk etməyə qədər böyük bir yol keçib və bu səbəbdən də "Mənim tanıdığım Füzuli" həvəskar kitabı deyil, Füzulini sevən bir şairin düşüncələrindən doğub.

Elmi həqiqət isə təkcə nəyisə təsdiq etməklə, onun izahını verməklə deyil, həm də məlum olan, amma mübahisəyə və yeni fikrə imkan verən mülahizələrə münasibət kimi də meydana çıxa bilər. Elə əsərin başlanğıcında Hacı Ələmdar belə bir fikir irəli sürür ki, sovet dönəmində Füzuli yaradıcılığından söz açan tədqiqatçılar kommunist rejiminin təsirilə onu islam ehkamından, irfandan ayırmağa cəhd göstərmişlər. Füzuliyə "müasirlik" donu geyindirib, onun dini dünyagörüşünü, irfanla bağlılığını inkar etmək isə birtərəfliliyə aparıb çıxarıb. Digər tərəfdən, sovet dövründə yazılan bir sıra tədqiqatlarda Füzuli yaradıcılığının yalnız sosioloji aspektdən izlənilməsi, şairin poeziyasındakı nəfsi gözəllikləri və məna çalarlarını gözdən qaçırmağa gətirib çıxarıb. Təbii ki, biz də bu deyilənlərlə razılaşırıq. Amma onu da xatırladaq ki, füzulişünaslıqda yeni mərhələnin başlanması böyük şairin yaradıcılığına bu birtərəfli münasibətə son qoydu. Xüsusilə Sabir Əliyevin və Səmət Əlizadənin bu sırada xidmətləri unudulmazdır. Allah hər ikisinə rəhmət eləsin!



Hacı Ələmdar Füzuli sənəti barədə fikir və mülahizələrini sırf Şərq poetikası kontekstində davam etdirir. Onun fikrincə, Şərq poeziyasının bədii sisteminə bələd olmadan Füzuli sənətinin incəliklərini açıqlamaq doğru deyil. Odur ki, müəllif Füzuli sənətindəki bəlağət və onun tərkib hissələrindən söz açmağı vacib sanır, çünki "şeirdə bədii ifadə və təsvir vasitələrini, estetik xüsusiyyətləri bir alim kimi dərindən bilən və bir şair kimi onlardan böyük məharətlə istifadə etməyi bacaran Füzuli, bütün şeirlərini bəlağət və onun tərkib hissələri ilə bəzəmişdir". Bəlağətin klassik poeziyada işlənən tərkib hissələrini isə müəllif aşağıdakı kimi qruplaşdırır: təşbeh, istiarə, təzad, mübaliğə, bədii təyin (epitet), təlmih, səc, kinayə, məcaz, təkrir, cinas, lüğəz və s. Göründüyü kimi, bütün adlar Şərq şeiri poetikasından götürülür, dilimizə yabançı olan istilahlardan sərf-nəzər edilir.

Hacı Ələmdarın "Mənim tanıdığım Füzuli" kitabında ən maraqlı hissə "Füzulidə eşq məfhumu və "Leyli və Məcnun" poeması"dır. Məhz bu hissədə müəllifin Füzuliyə, onun poeziyasına və bu poeziyada ifadə olunan eşq anlayışına nə dərəcədə vaqif olması xüsusilə diqqəti cəlb edir. O, yenə də Qərb alimlərinin fikirlərindən sərf-nəzər edir, "hansısa bir Avropa şərqşünasının yox, Füzulinin əqidəsini daşıyan müsəlman alimlərinin fikirlərinə əsaslanmaq doğrudur" deyir. Biz bu xüsusda sağlığında Hacı ilə mübahisə etsək də, amma problemin Şərq kontekstində izlənilməsini də maraqlı hesab edirik. Gəlin, müxtəsər də olsa, Hacı Ələmdarın eşq məfhumu barədə söylədiyi bəzi fikirlərə diqqət yetirək: "Bəzi alimlər eşqi iki mərtəbə bilib məcazi və həqiqi adlandırmış, digərləri də iki görmüş, lakin həqiqi və ilahi demişlər. Bunlar nədir? Eşqi məcazi və həqiqi bilən alimlər, onu nəzərdə tutublar ki, məcazi eşq həqiqi eşqin müqəddiməsidir. "Məcaz" sözü lüğəti mənada həqiqi olmayan, həqiqətin əksi olmasına baxmayaraq, burada həqiqətin başlanğıcı kimi mənalanır. Yəni insan həqiqi olmayan eşqə düşsə də, düşdüyü eşq hər nəyə aid olmasına baxmayaraq, əvvəl-axır ona həqiqi eşqi göstərər. Məsələn, təyyarənin quş kimi uçmağına baxmayaraq, uçuş xətti olmasa, o, uça bilməz. Məcazi eşq də həqiqi eşq üçün bu cür zəmin yaradır".

Daha sonra: "Eşqin mərhələlərini həqiqi və ilahi kimi görənlər isə belə düşünürlər ki, məcazi eşq, əslində, həqiqi eşqi tapmaq üçün yalnız bir keçi dola bilər. Adından bəlli olduğu kimi o, həqiqətin özü ola bilməz, ancaq həqiqətə bənzəyə bilər. Bu baxımdan insanda əvvəl həqiqi eşq cilvələnər ki, ilahi eşqi tapa bilsin. Bu nəzəriyyələrin hər ikisi doğrudur. Ancaq eşqə iki cür yanaşmadan əlavə başqa bir fikir də doğur ki, o da bundan ibarətdir: Eşqin sadikləri həqiqətdən ilahiyyata doğru hərəkət etməkdədirlər.

Lakin bu iki mərtəbə ilə kifayətlənməyib, o özü də eşqin şərbətindən dadmış bir həqiqi aşiqdir. Əslində, əgər şair, yazdıqlarında görünməsə, nə sözündə bir kəsir olar, nə də adı əbədiyyət tapar.

Hacı Ələmdar "Leyli və Məcnun" poemasının eşq və irfanla bağlı məqamlarını da çox gözəl incələyib. O, belə bir fikri dönə-dönə vurğulayır ki, "Füzuli şeirlərinin bəzəyi və gücü, müxtəlif elmlərlə yanaşı, həm də imandır.

Bunu deməkdə məqsədim odur ki, elm əhli olanlar Füzuli yaradıcılığına müraciət etmək və şərh vermək istəsələr, biliklərlə bərabər, Peyğəmbər (s) və Əhli beytin (ə) mətləblərinə, Qurani-Kərimin öyrətdiklərinə əsaslansınlar. Çünki Füzuli məhz islam şairidir".

Hacı Ələmdar Mahir həm də ŞAİR idi. Əlbəttə, Füzulini və klassik poeziyanı sevən hər kəs şair ola bilməz. Şairlik poetik istedadla bağlıdır. Hacının sağlığında şeirlərindən ibarət "Külliyyat"ı çapdan çıxmışdı. Bu "Külliyyat"da Mahirin klassik şeir formalarında (ən çox qəzəl) şeirləri tanış olduq. Bu şeirlər qəzələ, əruz vəzninə kifayət qədər-yetərincə bələd olan bir şairin araya-ərsəyə gətirdikləri idi. Hacı Ələmdarın qəzəlləri Füzulinin "Qəzəl de ki, məşhuri-dövran ola" tələbi ilə səsləşir desək, əsla yanılmarıq.

Onun əksər qəzəlləri mənaya xidmət edir, amma təbii ki, bu məna və məzmun emosional biçimdədir, qafiyə, rədif, daxili qafiyə ustalığındadır, hər beytin məzmunu ilə formanın harmoniya təşkil etməsi həmin qəzəllərin başlıca məziyyətidir. Bir qəzəlinə müraciət edək:

**Ey könül, ustadilər zatında istedad olur,**
**Qaydadır, zatında istedad olan ustad olur.**
**Alilər söz eşqinə, söz var udarlar birtəhər,**
**Söz də var ki, söz bilənlər zövqünə bir dad olur.**
**Ad qazanmazsan böyüklər məktəbindən keçməsən,**
**Nüktədan tövsiyəsi şairliyə bünyad olur.**
**Məzlumun haqqın əda qıl, bir məsəldir xəlq ara,**
**Zülm ilə abad olan, bir gəlir bərbad olur.**
**Atəşi-hicr ilə qan-yaş tökməyim bica deyil,**
**Göz yaşıyla islananlar, bərkiyib fulad olur.**
**Başda sövda, əldə tişə, Bisutun axtarma çox,**
**Zənn edirsən yoxsa ki, hər dağ çapan Fərhad olur.**
**Keçsə də, illər unutmaz, Mahirəm, xalqım məni,**
**Çünki keçmişlər bu gün xalqın dilində yad olur.**

"Külliyyat"da divan ədəbiyyatına daxil edilən klassik şeir formalarının əksəriyyəti öz əksini tapır. Mən cavan qəzəlxanlara məsləhət görərdim ki, Hacı Ələmdar Mahirin "Külliyyat"ını tapıb oxusunlar, görsünlər qəzəl necə yazılır

Hacı Ələmdara min-min rəhmət diləyirik. Sözümü onun "Söz" qəzəlindən bu iki beytlə tamamlamaq istəyirəm:

**Tut sözü daim özündən yüksək, ey şair könül,**
**Çünki ALLAH göndəribdir Əhmədi-Muxtarə söz.**
**Hər sözə meyl etmə Mahir, salma qiymətdən sözü,**
**Çıxdı bir gün bəlkə, qiymət almağa bazarə söz.**